возможности школьного самоконтроля и приводятся оригинальные суждения, которые могут сыграть положительную роль в развитие педагогической науки.

## SELF-CONTROL OF STUDENTS DURING TRAINING

***Calilova Tunzala Aladdin***

***Summary***

The article is denoted one of the actual problem to our contemporaneity. Have been shown the ways of the usage depending on the preparation, experience of the teachers and in the same time new efficient means and methods opportunities. In article is made attempt of consideration of queen problems in sprint of independence and national pedagogy open the pedagogical possibilities of the school selifverification.

***Rəyçi: doc. Cəfər İbrahimov***
***Psixologiya kafedrasının 28 oktyabr 2021-ci il tarixli iclasın 02 saylı protokolu***
***Daxil olma tarixi 02 noyabr 2021-ci il***

**UOT:32.**

## MƏDƏNİ MÜXTƏLİFLİYİN DƏSTƏKLƏNMƏSİ VƏ QORUNMASI AZƏRBAYCAN RESPUBLIKASININ DÖVLƏT SİYASƏTİDİR

***Əliyev Sədrəddin Malik oğlu***
***Gəncə Dövlət Universiteti***
***sedreddin.elixanli@mail.ru***

**Xülasə:** *Məqalədə, mədəni müxtəliflik, çoxmillətli, çoxdinli, çoxdilli Azərbaycanın ən müxtəlif milli-etnik qrupların nümayəndələrinin yaşadığı unikal coğrafi, geosiyasi və mədəni məkan olduğu verilmişdir. Multikulturalizm və tolerantlıq ənənələrini tarixən azərbaycanlıların həyat tərzi olması , bu gün isə milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilməsi, hər bir xalqın formalaşması və təkamülü prosesində mütərəqqi fikir və ideyalar əsas səfərbəredici amil kimi verilmişdir. Bu fikir və ideyaları özündə cəm edən milli ideologiyalar olmadan ayrı-ayrı xalqların nəinki inkişafından, hətta mövcudluğundan danışmaq çətindir. Hər hansı xalqın bütünlüyünü təmin edən birlik və həmrəylik konsepsiyasını milli ideyasız reallaşdırmaq mümkünsüzdür. Azərbaycan xalqının Mədəni müxtəlifliliyi onun tarixən keçdiyi yolu, tarixi adət-ənənələri, sahibləndiyi milli-mənəvi dəyərləri barədə dolğun təsəvvür yaradır. Xüsusən tarixin bütün dövrlərində özünün rəngarəng tərkibli olması ilə fərqlənən Azərbaycanda bu müxtəlifliyin etnik-milli mənbələri mövcuddur. Azərbaycanda yaşayan onlarla etnik-dini birliklərin qarşılıqlı münasibəti və mədəniyyəti - folklor, dialekt, adət, məişət tərzi, inam sistemi və s. müxtəlifliyin vəhdətini müəyyənləşdirmişdir.*

**Açar sözlər:** Mədəni müxtəliflik, etnik, folklor, dialekt, adət, məişət tərzi, inam sistemi
**Key words**: cultural diversity, ethnic folklore custom, lifestyle, belief system
**Ключевые слова:** культурное разнообразие, этнические фольклорные обычаи, образ жизни, система убеждений.

Mədəniyyətin ən mühüm amillərindən biri mədəni müxtəliflik və plüralizmdir. Azərbaycan çox qədimdən ən müxtəlif xalqların və mədəniyyətlərin vətəni olmuşdur. Şərq mədəniyyətinin dünya və Avropa mədəniyyətinə, yaxud əksinə keçid alması üçün Azərbaycan körpü rolunu oynamışdır. Çoxmillətli, çoxdinli, çoxdilli Azərbaycan üçün bu ideologiyanı tarixi reallığımızın özü irəli sürmüşdür. Həqiqətən, ən müxtəlif milli-etnik qrupların nümayəndələrinin yaşadığı Azərbaycan unikal coğrafi, geosiyasi və mədəni məkandır.[1,s 61-62]

Tarixin bütün dövrlərində özünün rəngarəng tərkibli olması ilə fərqlənən Azərbaycanda bu müxtəlifliyin etnik-milli mənbələri mövcuddur. Azərbaycanda yaşayan onlarla etnik-dini birliklərin qarşılıqlı münasibəti və mədəniyyəti - folklor, dialekt, adət, məişət tərzi, inam sistemi və s. müxtəlifliyin vəhdətini müəyyənləşdirmişdir.[1,s 34]

Azərbaycanda, tarixən, bütün xalqlara, mili azlıqlara və etnik qruplara eyni - normal münasibət bəslənib. Azərbaycan dövləti ardıcıl və düzgün milli siyasət yeridib, milli azlıqların hüquqlarının təminatı sahəsində mühüm nailiyyətlər əldə edib.Dövlət tərəfindən atılan məqsədyönlü addımlar dinindən, millətindən asılı olmayaraq, Azərbaycan xalqının bütün dövrlərdə mehriban ailə, dost, qardaş olaraq yaşamaq ənənələrini daha da möhkəmləndirib.[4,s 18-20]

Azərbaycan dövləti təminat verir ki, ölkə ərazisində yaşayan milli azlıqlar qanunla nəzərdə tutulan hər cür təşkilat yarada bilərlər. Belə təşkilatların hüquqi vəziyyətini Konstitusiya və ya qanunlar tənzimləyir. Azlıqların milli təşkilatlarının müxtəlifliyi ənənələrlə bağlıdır. Xüsusi etnik birliklər daha çox dini zəmində yaranır.[4,s 64-65]

Azərbaycan xalqı ölkə ictimaiyyətinin əsas hissəsi olan azərbaycanlılardan və ölkənin müxtəlif guşələrində yığcam halda yaşayan 30 sayda millət və etnik qruplardan ibarətdir. Sayı, dil və dinlərinin müxtəlifliyinə baxmayaraq, onlar Azərbaycanın bərabərhüquqlu vətəndaşlarıdır[10,s 77-78]

Müstəqillik əldə etdikdən sonra bir çox region ölkələrindən fərqli olaraq, Azərbaycanda yaşayan milli azlıq və etnik qrupların mədəniyyəti ölkə mədəniyyətinin tərkib hissəsi kimi qorunur və inkişaf edir. Bu, regionun inkişaf edən ölkəsi kimi Azərbaycan üçün ən təqdirəlayiq hal kimi qiymətləndirilməlidir. Sovetlər Birliyi dağılandan sonra Azərbaycanda bır sıra mədəniyyət mərkəzləri yaradıldı. Milli azlıqlar tarixi, mədəni adət-ənənələrini qoruyub saxlamaq naminə öz mədəniyyət mərkəzlərini yaratdılar. Bunun nəticəsidir ki, hazırda Azərbaycanda onlarla milli-mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi UNESKO-nun, Avropa Şurası və ATƏT-in "mədəni müxtəlifliyə" dair proqramlarında fəal iştirak edir. Mədəniyyət və Turizm Nazirliyi "Azərbaycan mədəni müxtəlifliyi" layihəsini həyata keçirir. [9,s 68-69]

Hər il mayın 21-də Dialoq və İnkişaf Uğrunda Dünya Mədəni Müxtəliflik Günü qeyd olunur. Bu gün BMT Baş Məclisi tərəfindən 2002-ci ilin dekabrında təsis edilmişdir. Dialoq və İnkişaf Uğrunda Dünya Mədəni Müxtəliflik Günü ilk dəfə 2003-cü il mayın 21-də keçirilmişdir. UNESCO-ya üzv olan dövlətlər bu qurumun Bəyannaməsini təsdiqləməklə mədəni müxtəlifliklə əlaqədar dəyərlərin tanınmasını, qorunmasını və yerli, milli və beynəlxalq səviyyədə fəal təbliğ olunmasını öhdələrinə götürmüşlər. [3,s 144]

Müxtəlifliyin vəhdəti etnik, milli və ya konfessional fərqlərin aradan qaldırılması demək deyil. Hazırda, Azərbaycanda onlarla milli azlığın nümayəndəsi yaşayır: rus, ukrayn, tat, kürd, belorus, talış, yəhudi, türk, alman, ləzgi, tatar, avar, gürcü, saxur, udin və s.[15,s 44-45]

Onlar öz dillərindən istifadə edir, maddi-mənəvi mədəniyyətlərini qoruyub saxlayır, özlərinin milli-mədəni birliklərini, assosiasiyalarını və ittifaqlarını yaradırlar. Belə təşkilatlardan Talış Mədəni Mərkəzi, Kürd Mədəni Mərkəzi (Ronai), Ləzgi Mədəni Mərkəzi (Samur), Ləzgilərin Mifologiyasını Öyrənən Mərkəz, "Saxur" Mədəni Mərkəzi, Şeyx Şamil adına Avar Cəmiyyəti, Udinlərin "Orayin" Mədəni Mərkəzi, tatların "Azəri" Mərkəzi, Buduq Mədəni Mərkəzi, Azərbaycan Slavyanlarının Mədəni Mərkəzi, Rus İcması Cəmiyyəti, Xınalıq Mədəni Mərkəzi, Azərbaycan Tatlarının İcması, Azərbaycan Gürcülərinin Cəmiyyəti, Azərbaycan Ukraynalılarının Cəmiyyəti, Azərbaycan Avropa Yəhudilərinin İcması, Almanların Milli - Mədəni Cəmiyyəti, Azərbaycan Yəhudiləri Cəmiyyəti, Beynəlxalq "İudaika" Cəmiyyəti, Məhsəti Türklərinin Vətən Cəmiyyətini göstərmək olar. [22,s 33]

Milli azlıqların bu və ya digər strukturları dəfələrlə hökumətdən maliyyə yardımı alıblar. Eyni zamanda, yerləşdikləri binalara görə icarə haqqı vermirlər. Dövlət onların müdafiəsini müxtəlif formalarda həyata keçirir.

Dövlət səviyyəsində milli-mədəni cəmiyyətlərlə görüşlər keçirilir və burada milli azlıqlarla bağlı konkret problemlər operativ həll olunur. Eyni zamanda, mütəmadi olaraq elmi-praktiki konfranslar keçirilir.Milli mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan Respublikası vətəndaşlarının keçmişinə aid olan tikililər "tarix və mədəniyyət abidələri" kimi siyahıya alınaraq dövlət tərəfindən qorunur və bərpa olunur.[11,s 118]

Misal olaraq Şəki rayonunun Kiş və Qəbələ rayonunun Nic kəndindəki kilsələri göstərmək olar Qax rayonu ərazisində xristian kilsəsi, Masallı rayonunun Ərkivan kəndində XIX əsr məscidi bərpa olunmuşdur. Dövlət tərəfindən Qax rayonu ərazisində yerləşən Allahverdi kilsəsində "Milli azlıqların mədəniyyəti və etnoqrafiyası" adlı muzeyin yaradılması ideyası əsasında layihə hazırlanmış və həmin layihə Avropa Şurası tərəfindən müsbət qiymətləndirilmişdir. [22,s 76-79

Hazırda, milli azlıqları təmsil edən mədəni mərkəzlər və birliklərlə bağlı mühüm işlər görülür. Məsələn, dövlət büdcəsindən maliyyələşən Qusar rayonundakı Ləzgi Dövlət Dram Teatrının və Qax rayonunda yaradılmış Dövlət Kukla Teatrının maddi-texniki bazaları möhkəmləndirilmişdir. Qax rayonunun Əlibəyli kənd Mədəniyyət evində 1981-ci ildə yaradılmış və 1985-ci ildə "xalq teatrı" adını almış gürcü dram dərnəyinə dövlət statusu verilmişdir. S. Vurğun adına Rus Dram Teatrı ilə yanaşı, Azərbaycan Dövlət Musiqili Komediya, Azərbaycan Dövlət Gənc Tamaşaçılar və Azərbaycan Dövlət Kukla Teatrlarındakı rus bölmələri müvəffəqiyyətlə fəaliyyət göstərirlər. [14,s 103-104]

2006-cı il oktyabr ayının 16-dan 23-ə qədər UNESKO-nun Paris şəhərindəki mənzil-qərargahında "Azərbaycan həftəsi" adlı mədəni tədbirlər çərçivəsində Azərbaycanda yaşayan milli azlıqlara aid foto-sərgi nümayiş etdirilmişdir. Azsaylı xalqların həyat tərzinə, mədəniyyətinə, məişətinə dair daha bir foto-sərgi 2009-cu ildə UNESCO-nun mənzil-qərargahında keçirilmişdir. [3,s 87-88]

Dövlət bu qurumları imkan dairəsində ölkə büdcəsindən və Prezident ehtiyat fondu hesabına maliyyə yardımı ilə təmin edir və mənşəyindən, mədəniyyətindən, dilindən və dinindən asılı olmayaraq, bütün şəxslər arasında qarşılıqlı anlaşma, dözümlülük və hörməti gücləndirməyə yardım göstərir

Milli azlıqların yığcam yaşadıqları Lənkəran şəhəri, Astara, Balakən, Dəvəçi, Gədəbəy, Xaçmaz, İsmayıllı, Qax, Qəbələ, Qusar, Lerik, Zaqatala, Masallı rayonlarında fəaliyyət göstərən 41 uşaq musiqi və incəsənət məktəbində 12 mindən çox yeniyetmə müxtəlif ixtisaslar üzrə təhsil alır. [15,s 19]

Azsaylı xalqların folklorunun, mədəniyyətinin geniş təbliği üçün bədii özfəaliyyət kollektivlərinin repertuarının milli zəmində inkişafı üçün tədbirlər həyata keçirilir. qəbildən olan bir çox xalq kollektivləri, nəinki respublikamızda, eyni zamanda, bir çox xarici ölkələrdə də məşhurdurlar. Saatlının "Adıgün" – Axıska türkləri, Cəlilabadın "Ruçeyok" - rus, Qaxın "Şividkatsa" - gürcü, Zaqatalanın "Ceyranım" - saxur, Qubanın tat, yəhudi, Qusarın "Trillo", "Şahnabat", "Mel", "Qayıbulaq", "Şahdağ", "Dustaval" və "Melodiya" - ləzgi, Laçının kürd, Balakənin "Xoylo" - avar, Lənkəranın "Şənlik", “Bacılar" folklor mahnı və rəqs, Masallı rayonu "Halay", Lerik rayonunun “Laqutto”, Astaranın "Sevinc" - talış, İsmayıllı rayonu İvanovka kənd mədəniyyət evinin - malakan, Bakı şəhərindəki “Gözəlim” tatar bədii özfəaliyyət kollektivləri bu qəbilədəndir. [2,s 144]

Mədəniyyət müəssisələrində fəaliyyət göstərən bir çox azsaylı xalqlar qonşu rayonlarla yanaşı, xarici ölkələrdə də qastrol səfərlərində olurlar. Qax rayon xalq teatrının Balakən, Zaqatala, Şəki, Oğuz, Qəbələ, Gürcüstan Respublikasının Laqodexi, Marneuli, Dmanisi, Batumi, Qori şəhərlərinə, Zaqatala rayonunu "Avar", "Saxur" xalq teatrı kollektivlərinin qonşu rayonlara, Lənkəran rayonunun "Şənlik", Astaranın Sevinc , "Əfsur" talış mahnı və rəqs ansambllarının İran, Türkiyə və İraqa səfərləri olmuşdur.Astara rayon Mədəniyyət evinin "Sevinc" mahnı və rəqs ansambllarının talış milli azlığının adət-ənənələrinin, milli rəqs və mahnılarının təbliği sahəsində böyük rolu vardır. Kollektivin Tacikistan, Qazaxıstan,

Bolqarıstan, Gürcüstan, Rusiya və Türkiyədə çıxışları buna əyani sübutdur. Astarada "Məhsul", "Əkinçi", "Şum" bayramları keçirilir. [5,s 54-55]

Milli azlıqları bədii kollektivlərinə diqqət və qayğı Mədəniyyət və Turizm Nazirliyinin fəaliyyətində xüsusi yer tutur. Bir çox kollektivlər nazirlik tərəfindən geyim, musiqi alətləri və texniki vasitələrlə təchiz olunmuşlar.2002-ci il 27-28 iyun tarixdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və ATƏT-in Azərbaycandakı ofisi ilə birgə "Azərbaycanın mədəni çeşidliyi" adlı elmi-praktiki konfrans keçirilib.Ruslar Azərbaycanda iqtisadiyyata, dövlətçiliyə, elmə, mədəniyyətə və təhsilə sanballı payını vermişlər. Hələ keçən əsrin 70-ci illərindən respublikada rus dilinin hərtərəfli inkişafı üçün həyata keçirilən siyasət öz bəhrəsini verməkdədir. 1970-ci ildən Azərbaycandakı orta məktəblərdə birinci sinifdən rus dili tədris edilməyə başlandı. Bu gün 400 məktəbdə dərslər rus dilində, 21 ali məktəbdən 20-də isə dərslər Azərbaycan və rus dillərində keçirilir.Azərbaycanda rus dilinə belə yüksək münasibət keçmiş SSRİ ərazisində yaşayan xalqlarla sıx əlaqələr saxlamağa imkan verir.

Azərbaycanın siyasi rəhbərliyi ölkəmizdə yaşayan bütün millətlərin və xalqların inkişafı üçün mühüm işlər görür. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə rəhbərliyi dövründə milli azlıqların mədəniyyətinə diqqət və qayğı xüsusi yer tutmuşdur. Bu fəaliyyət hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. [11,s 54].

UNESCO-nun 20 oktyabr 2005-ci il tarixli "Mədəni özünümüdafiə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiya"ya uyğun olaraq, Azərbaycanda yaşayan milli azlıq və etnik qrupların mədəniyyəti, incəsənəti, adət-ənənələri və dilinin qorunub saxlanılması üçün məqsədyönlü iş aparılır. Prezident İlham Əliyevin 2009-cu il 26 noyabr tarixdə imzaladığı Qanunla ölkəmiz sözügedən Konvensiyaya qoşulub. [13,s 214] Etnik azlıq və qrupların mədəni irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi, habelə, xalqlar arasında qarşılıqlı anlaşma və tarixi dostluq münasibətlərinin möhkəmləndirilməsi məqsədilə Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə İctimai Televiziya ilə birgə "Azərbaycan - doğma diyar" devizi altında hər iki ildən bir Azsaylı Xalqların İncəsənəti festivalı keçirilir. Bu münasibətlə respublikanın müxtəlif bölgələrindən - Lənkəran, Astara, Masallı, Balakən, Zaqatala, Qax, Şəki, Quba, Qusar, Saatlı, İsmayıllı və Şabrandan azsaylı xalqların bədii kollektivləri Bakıya dəvət edilirlər. İctimai Televiziya 500-ə yaxın iştirakçısı olan festivalı ətraflı işıqlandıraraq Azərbaycanın bu palitrasını bütün dünyaya nümayiş etdirir. Azsaylı xalqların adət-ənənəsini, mətbəxini, folklorunu əhatə edən filmlər və verilişlər ingilis dilinə tərcümə olunaraq Avropa tamaşaçılarına təqdim edilir.Bu tədbirlər bir daha göstərir ki, dövlətin azsaylı xalqların mədəniyyətinin inkişafına dəstəyi onlara stimul verir. [5,s 117] Qeyd etmək lazımdır ki, azsaylı xalqlarla bağlı mədəni layihələr ilk dəfə həyata keçirilməyə başlayanda yerlərdəki incəsənət kollektivləri elə də peşəkar səviyyədə deyildi. Lakin göstərilən diqqət və qayğının, aparılan əməli işin nəticəsində artıq peşəkar şəkildə formalaşan ansambllar meydana gəlib. [13,s 204] Artıq bu kollektivlər o qədər yüksək səviyyəyə çatıblar ki, onları dünyanın bir çox ölkələrinə müxtəlif beynəlxalq tədbirlərə göndərə bilirik. Bu da milli azlıqların mədəniyyətinin inkişafına əlavə stimul verir.Təbii ki, qloballaşma təbii prosesdir və bu, insanları birləşdirir. Amma bu prosesin müsbət tərəfləri ilə yanaşı, bir mənfi cəhəti də özünü göstərir, bu da insanların mədəni irsini, bəzən adət-ənənələrini unutmalarıdır.

Azərbaycan dövləti çalışır ki, ölkəmizdə yaşayan milli azlıqlar öz ənənələrini yaşatsınlar və Azərbaycan mədəniyyətinin tərkib hissəsi olan bu xalqların mədəniyyətləri qorunaraq nəsildən-nəsilə ötürülsün.Bu sahədə Mədəniyyət və Turizm Nazirliyi ilə yanaşı, Təhsil Nazirliyi, digər qurumlar da müvafiq işlər görürlər [4,s78-79]. 2012-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunda Azsaylı xalqların folkloru bölməsi yaradılıb. Bu da Azərbaycanda yaşayan azsaylı xalqların folklor nümunələrinin qorunub saxlanılmasında və gələcək nəsillərə ötürülməsində mühüm əhəmiyyət kəsb edir. Elə folklor ənənələri var ki, birgə yaşayış prinsipindən irəli gələrək ümumi formaya düşməyə

başlayıb.Bunların arasında başlıca olaraq toy ənənəsini göstərmək olar. Toy hər bir xalqın mədəniyyətinin, folklorunun ayrılmaz hissəsidir. [9,s 67] Dünyanın hər yerində xalqların toy ənənələri əsrlərlə formalaşır, xalqın təmsilçisinə çevrilir. Milli azlıqların, hər mahalın, hətta, hər kəndin, elin vaxtı ilə özünə xas maraqlı adətləri indi vahid formada özünü göstərməyə başlayıb. Əmək, mərasim və mövsüm nəğmələri, layla və ağılar, lirik mahnılar və instrumental rəqs havaları hər bir mədəniyyət daxilində xüsusi təzahür formalarına malikdir. Müxtəlif xalqların folklorunda eyni janrların yeri və əhəmiyyəti də müxtəlifdir. [9,s 218]

Azsaylı xalqların zəngin musiqi folkloru Azərbaycanın mənəvi mədəniyyətinin ayrılmaz tərkib hissəsini təşkil edir. Azərbaycanın ənənəvi "Musiqi Atlası" layihəsi Azərbaycan musiqi folklorunun rəngarəng dialektlərini də əhatə edir.Məsələn, ləzgilər, avarlar, saxurlar, rutullular arasında nağara-zurna dəstəsi tərəfindən icra olunan instrumental rəqs havaları aparıcı yer tutsa da, bu folklor mədəniyyətlərində mahnı janrının müxtəlif növ və şəkillərinə də rast gəlirik (laylay, ağı, mərasim nəğmələri, lirik mahnılar). Bu xalqları ümumi musiqi üslubu və çalğı alətləri (nağara, zurna, balaban, tütək, sipsi, tənbur) və eləcə də, tipik melodiya formulları birləşdirir. Eyni zamanda, bəzən onlardan hər birinə məxsus fərqli çalarlar da sezilir.Ən qədim etnoslardan biri olan talışların musiqi folkloru zəngin janr və ifa xüsusiyyətləri ilə seçilir. Qadınlar tərəfindən ifa olunan nisbətən yaxşı qorunub saxlanılmış əmək, toy, mövsüm mərasim nəğmələri, "halay" mahnı-rəqsləri məlumdur. [3,s 25] Bir çox mahnı nümunələri həm talış, həm də Azərbaycan dilində oxunur və bu mədəniyyətlərin sıx qarşılıqlı əlaqələrini əks etdirir.Balakən rayonunun özünəməxsus milli musiqi aləti var ki, bu da yalnız Balakən və Zaqatalada istifadə olunur. Qədim zamanlardan bu vaxta qədər balakənlilər öz əlləri ilə düzəltdikləri iki simli tamburdan el şənliklərində musiqi aləti kimi istifadə edirlər. Tamburdan həm kişilər, həm də qadınlar çalaraq laylalar söyləyir, Balakənə məxsus yerli rəqsləri ifa edirlər. [4,s 52]

2015-ci il aprelin 4-də Qusar Dövlət Ləzgi Dram Teatrında dahi bəstəkar Üzeyir Hacıbəylinin "Arşın mal alan" əsərini ilk dəfə Qusar şəhər Mədəniyyət Evinin səhnəsində ləzgi dilində səhnələşdirməsi multikulturalizm ənənlələrinin davam etməsinin əyani göstəricisi idi.Təbii ki, müxtəlif səpkili tədbirlərin keçirilməsi, heç şübhəsiz, milli azlıqların adət-ənənələrinin, bir sözlə, mədəni irsinin qorunub saxlanılmasına birbaşa xidmət göstərsə də, burada başlıca məqsəd xalqlar arasında qardaşlığa, səmimi ünsiyyətə, mehriban birgəyaşayışa maneə olmadığını, əksinə, buna stimul verdiyini göstərməkdir. [15,s 67]

Azərbaycan dövləti tərəfindən mədəniyyətlərarası dialoqun təşviqi məqsədilə həm beynəlxalq, həm də milli səviyyədə həyata keçirilən tədbirlər ölkəmizin beynəlxalq arenada nüfuzunu artırmaqla yanaşı, xalqımızın milli həmrəyliyini daha da möhkəmləndirir və ölkəmizi mədəniyyətləri qovuşduran məkan kimi beynəlxalq aləmə təqdim edir. Bu gün Azərbaycan dünyada azlıq və ya çoxluğun fərqinin hiss edilmədiyi ölkələr sırasında ilk yerlərdən birində qərarlaşmışdır. Bir sözlə, Azərbaycan dövlətinin apardığı milli siyasət göstərir ki, xalqlar bir-biriləri ilə mehriban yaşaya bilərlər və bu baxımdan ölkəmiz dünyaya nümunədir.

**Nəticə:** Mədəni müxtəliflik, çoxmillətli, çoxdinli, çoxdilli Azərbaycanın ən müxtəlif milli-etnik qrupların nümayəndələrinin yaşadığı unikal coğrafi, geosiyasi və mədəni məkan olduğunu sübut edir..Multikulturalizm və tolerantlıq ənənələrini tarixən azərbaycanlıların həyat tərzi olması, bu gün isə milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilmişdir. Hər hansı xalqın bütövlüyünü təmin edən birlik və həmrəylik konsepsiyasını milli ideyasız reallaşdırmaq mümkünsüzdür.Azərbaycan xalqının Mədəni müxtəlifliliyi onun tarixən keçdiyi yolu, tarixi adət-ənənələri, sahibləndiyi milli-mənəvi dəyərləri barədə dolğun təsəvvür yaradır. Xüsusən tarixin bütün dövrlərində özünün rəngarəng tərkibli olması ilə fərqlənən Azərbaycanda bu müxtəlifliyin etnik-milli mənbələri mövcuddur. Azərbaycanda yaşayan

onlarla etnik-dini birliklərin qarşılıqlı münasibəti və mədəniyyəti - folklor, dialekt, adət, məişət tərzi, inam sistemi və s. müxtəlifliyin vəhdətini müəyyənləşdirmişdir.

***Ədəbiyyat***


1. Əliyev R.Y. İslam və Azərbaycan mədəniyyəti. Bakı: 1998, 118 s.
2. Quluzadə M. Azərbaycanda dövlət din münasibətləri (İslam dininin timsalında 1920-2000-ci illər). Bakı, Açıq dünya, 2002
3.Hüseynov S.Y.Azərb.dini tolerantlıq mədəniyyəti:tarix və müasirlik. Bakı:Təknur,2012,176.
4. İsmayılov G.K. Tolerantlıq: bildiklərimiz və bilmədiklərimiz. Bakı: Nurlar, 2014, 240 s.
5. “Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları”. Bakı,“Mütərcim”, 2016. 287 s.
6. Cümhuriyyətin və sovet dövrünün şeyxülislamı. Bakı: Elm və təhsil, 2011, 184 s.
7. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bülleteni. № 1, sentyabr-oktyabr, 2001.
8. Dövlət və din jurnalı. Noyabr, 2006.
9.. Niftiyev N.M. Azərbaycanda birgəyaşayış və multikulturalizm. Bakı, 2015, 408 s.
10. Əhədov A.F. Azərbaycanda din və dini təsisatlar. Bakı: Azərnəşr, 1991, .
11.Əliyev H.Ə. Dinimiz xalqımızın milli-mənəvi sərvətidir. Bakı: Əbilov, Zeynalov və oğulları, 1999, 165 s. 118
12. Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər. Bakı: Əbilov, Zeynalov və oğulları, 2007, 424 s.
13. Həsənov S.S. Din təhsili və dini təhsil müəssisələri. Bakı: Elm və təhsil, 2016.
14.Həsənov S.S. Dini etiqad azadlığı haqqında Azərbaycan Respublikası Qanununun kommentariyası. Bakı: Elm və təhsil, 2014, 272 s.
15. Qurbanlı M.Q. Azərb. dövlət-din münasibətləri:tarixi baxış və müasirlik.Bakı:Tuna, 2017.
16. Qurbanov Ə.C. Beynəlxalq münasibətlərdə din-islam amili. Bakı, 2000.
17. Yunusov A.S. Azərbaycanda İslam. Bakı: Zaman, 2004.
18. Aqasiyev İkram. XVIII əsrin sonu - XX əsrin əvvəllərində almanların Qafqazda məskunlaşması.«Təhsil».Bakı, 2009.
19. Aqasiyev İkram. Qafqazın alman koloniyaları. «Bakı Biznes Universiteti», Bakı, 2012.
20. Azərbaycanın türkçülük və azərbaycançılıq problemləri. Bakı: Ay- Ulduz, 1998,378 s.
21. Həsənov Ə.M. Azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin mərhələləri. (Azərbaycan, ingilis və rus dil lərində). Bakı, 2016, 80 s.
22. Quliyeva N. Azərbaycan tatlarının ailə məişəti və mənəvi mədəniyyəti. Bakı, 2005


## SUPPORT AND PROTRCTİON OF CULTURAL DVERSİTY İS THE STATE POLİCY OF THE RESPUBLİC OF AZERBAİJAN

***Aliyev Sadraddin Malik***

***Summary***

Cultural diversity proves that multinational, multi-religious, multilingual Azerbaijan is a unique geographical, geopolitical and cultural space inhabited by representatives of various national and ethnic groups. Traditionally, the traditions of multiculturalism and tolerance have become a way of life for Azerbaijanis, and today they have become a way of life for every citizen of Azerbaijan, regardless of their national identity, language or religion. It is impossible to realize the concept of unity and solidarity that ensures the integrity of any nation without a national idea. The cultural diversity of the Azerbaijani people creates a full picture of its historical path, historical traditions, national and spiritual values. There are ethnic-national sources of this diversity, especially in Azerbaijan, which is distinguished by its colorful composition in all periods of history. Interaction and culture of dozens of ethnic and religious associations living in Azerbaijan - folklore, dialect, customs, way of life, belief system, etc. defined the unity of diversity.

## ПОДДЕРЖКА И ЗАШИТА КУЛЪТУРНОВО РАЗНООБРАЗИЯ ГОСУДАРСТВЕННАЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

***Алийев Садраддин Малик кызы***

***Резюме***

Культурное разнообразие доказывает, что многонациональный, многоконфессиональный, многоязычный Азербайджан является уникальным географическим, геополитическим и культурным пространством, населенным представителями различных национальных и этнических групп. Традиционно традиции мультикультурализма и толерантности стали образом жизни для азербайджанцев, и сегодня они стали образом жизни для каждого гражданина Азербайджана, независимо от его национальной принадлежности, языка или религии. Невозможно реализовать концепцию единства и солидарности, обеспечивающую целостность любой нации, без национальной идеи. Культурное разнообразие азербайджанского народа создает полную картину его исторического пути, исторических традиций, национальных и духовных ценностей. Есть этнонациональные истоки этого разнообразия, особенно в Азербайджане, который во все периоды истории отличается красочным составом. Взаимодействие и культура десятков этнических и религиозных объединений, проживающих в Азербайджане - фольклор, диалект, обычаи, образ жизни, система верований и т.д. Определили единство разнообразия.

***Rəyçi: P.ü.f.d. Cəlilov Azər Muzadil oğlu***
***Sosial fənlər kafedrasının 09 sentyabr 2021-ci il tarixli iclasın 01 saylı protokolu***
***Daxil olduğu tarix 17 sentyabr 2021-ci il***

**UOT:390.**

## İBTİDAİ İCMA QURULUŞUNDA QADININ CƏMİYYƏTDƏ YERİ VƏ ROLU

***Rəhimova Gülnar Yaşar qızı***
***Gəncə Dövlət Universiteti***
***gulnar.rahimova1989@gmail.com***

**Xülasə:** *Bu məqalədə, ilkin sinfi cəmiyyətlərdə, ailədə qadınların ailədaxili məişətdə və ictimai həyatdakı rolu və ona dair müasir elmi nəzəriyyələr araşdırılmışdır.İnsanların icma halında yaşadığı dövrdə habelə Paleolit və Neolit dövründə də onların torpağa və anaya olan bağlılığı ailədə və cəmiyyətdə ananın rolunun daha qabarıq olduğunu ortaya çıxarır. Bu da öz növbəsində müasir alimlərin adını çəkdiyimiz mövzu ətrafında fikir ayrılıqlarına səbəb olur ki, bu da araşdırılan əsas mövzulardan birini təşkil edir. Mövzu həmçinin müxtəlif erkən dövlət qurumlarında qadınların cəmiyyətdəki rolunu əks etdirir.*

**Açar sözlər:** anaxaqanlığı, qədim dövr, rol, ailə, cəmiyyət
**Ключевые слова:** матриархат, древние времена, роль, семья, общество
**Key words:** matherhood, antiquity, role, family, society

50-ci illərin əvvəllərində Sovet dövrünün sosioloqları və etnoqrafları qadının ibtidai icma quruluşundakı rolu haqqında kritik düşüncələrə malik idilər. Hətta 1955-ci ildən başlayaraq matriarxat nəzəriyyəsi inkar edilməyə başlanılmışdır. Y.Semyonovun araşdırmalarına əsasən anaxaqanlığının yaranması və inkişafı bioloji faktorlardan deyil məhz sosioloji faktorlardan irəli gəlir. Eyni işdə Semyonov, Avstraliya aborigenləri arasındakı ikili qohumluğun daha əvvəlki bir ana ailəsinin dağılmasının nəticəsi olduğunu sübut etməyə çalışmışdı.